# "Heydər Əliyev İli" çərçivəsində tədbirlər



## Ağdam

Quzanlı qəsəbəsindəki Heydər Əliyev Mərkəzində "Heydər Əliyev və azərbaycançılıq məfkurəsi" mövzusunda konfrans keçirilib.

Tədbirdə çıxış edən rayon icra hakimiyyətinin başçısı Vaqif Həsənov, tarix üzrə fəlsəfə doktoru, professor Azad Bayramov və başqaları bildiriblər ki, ulu öndər Heydər Əliyevin fədakar fəaliyyəti, siyasi iradəsi, cəsarəti və uzaqgörənliyi sayəsində dövlətçiliyimiz və müstəqilliyimiz qorunub saxlanıldı, Azərbaycan böyük fəlakətdən xilas edildi, inkişaf və tərəqqi yoluna qədəm qoydu.

Ümummilli lider Heydər Əliyev azərbaycançılıq məfkurəsi və ideyasının banisidir. Dahi rəhbərin müəllifi olduğu azərbaycançılıq ideologiyası təkcə bu ölkənin ərazisində yaşayan insanları yox, eyni zamanda bütün dünyada məskunlaşan azərbaycanlıları əhatə edir. Konfransda xüsusilə vurğulandı ki, ümummilli liderimizin ideya və prinsiplərinə sadiq qalan Azərbaycan Prezidenti İlham Əliyevin dahi şəxsiyyətin siyasətini uğurla davam etdirməsi nəticəsində həmvətənlərimizin birlik və həmrəyliyi daha da möhkəmlənib.



## Mingəçevir

Mingəçevir Şəhər Heydər Əliyev Mərkəzində ulu öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə "Heydər Əliyev və Azərbaycançılıq məfkurəsi" mövzusunda konfrans keçirilib. Tədbir iştirakçıları ilk öncə ulu öndər Heydər Əliyevin abidəsi önünə tər gül dəstələri qoyaraq, bir daha öz ehtiramlarını bildiriblər.

Konfransda Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılov, Milli Məclisin deputatı Aydın Mirzəzadə, YAP Mingəçevir şəhər təşkilatının sədri Bəxtiyar Mustafayev, hüquq-mühafizə orqanlarının rəhbərləri, şəhid ailələri üzvləri, Birinci və İkinci Qarabağ müharibələrinin veteranları, qazilər, şəhər ictimaiyyətinin nümayəndələri və mətbuat işçiləri iştirak ediblər.

Şəhər rəhbəri İlham İsmayılov bildirib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə bağlı 29 sentyabr 2022-ci il tarixdə Sərəncam imzalamışdır. 28 noyabr 2022-ci il tarixdə isə "Heydər Əliyev İli" elan edilməsi ilə bağlı Tədbirlər Planının təsdiq edilməsi haqqında Sərəncam imzalamışdır. Həmin Sərəncamın icrası ilə əlaqədar təsdiqlənmiş Təqvim Planına uyğun olaraq silsilə tədbirlər keçirilməkdədir.

44 günlük Vətən müharibəsi əyani şəkildə göstərdi ki, müstəqillik illərində əldə edilmiş, milli birliyimiz, mənəvi-ideoloji vəhdətimiz bizim ən qiymətli sərvətlərimizdən biridir. Məhz bu milli birliyimizin təmin edilməsi ölkə Prezidenti tərəfindən həyata keçirildi. "Dəmir yumruq" əməliyyatı nəticəsində torpaqlarımız 30 illik işğaldan sonra azad edildi.

Heydər Əliyevin müəllifi olduğu və milli ideologiyamızın əsasını təşkil edən azərbaycançılıq bu gün də ulu öndərin layiqli davamçısı, ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməkdədir. Ölkə Prezidenti cənab İlham Əliyevin söylədiyi fikrə diqqət edək: "Ulu öndər Heydər Əliyevin siyasəti Azərbaycanın hərtərəfli inkişafına indi də xidmət etməkdədir. Dövlətimizin hazırkı nailiyyətlərinin əsasını ümummilli lider tərəfindən qoyulan ideyalar təşkil edir".



## Qax

"Heydər Əliyev İli" ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiqlənən Tədbirlər Planı çərçivəsində Ulu Öndərin zəngin dövlətçilik irsinin, əbədiyaşar ideyalarının öyrənilməsi və yeni nəslə aşılanması, xalqımız və dövlətimiz qarşısında misilsiz xidmətlərinin geniş ictimaiyyətə çatdırılması məqsədilə ardıcıl tədbirlər həyata keçirilir.

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatından verilən məlumatda qeyd olunur ki, martın 15-də YAP Qax rayon təşkilatı tərəfindən gənc partiya fəallarının iştirakı ilə rayon Heydər Əliyev Mərkəzinə ekskursiya təşkil olunub.

Mərkəzdə gənclərə müstəqil Azərbaycan dövlətinin memarı, ümummilli lider Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyəti haqqında geniş məlumat verilib, gənclər eksponat, fotoşəkil və kitablarla tanış olublar.

Sonda partiya sıralarına yeni qəbul olunmuş şəxslərə üzvlük vəsiqələri, partiya həyatında fəal iştirak edən gənclərə isə fəxri fərman təqdim edilib.